# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 190** **Bakı şəhəri, 29 may 2020-ci il**

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 15 iyun saat 00:00-dək uzadılsın.

**2.** Fəaliyyətinə məhdudiyyət tətbiq edilmiş aşağıdakı iş və xidmət sahələrinin fəaliyyəti 2020-ci il 31 may saat 00:00-dan bərpa olunsun:

2.1. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda dövlət orqanlarının (qurumlarının) işçilərinin tam fəaliyyəti;

2.2. ölkə ərazisində iri ticarət mərkəzlərinin fəaliyyəti (nəzdindəki uşaq və digər əyləncə mərkəzləri, kinoteatrlar və ictimai iaşə məkanları istisna olmaqla);

2.3. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə ictimai iaşə məkanlarında, eləcə də restoran, kafe və çay evlərində müştərilərə 08:00-dan 22:00-dək yerində xidmət (ölkə üzrə bütün ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə və 10 nəfərdən artıq toplaşmaqla kütləvi şənliklərin, məclislərin təşkili istisna olmaqla);

2.4. tamaşaçıların iştirakı olmadan açıq havada idman yarışlarının keçirilməsi.

**3.** "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 31 mart tarixli 122 nömrəli Qərarının 1.2-ci bəndində "onlara" sözü "həmin işçilərə öz arzusu ilə 14 təqvim gününədək" sözləri ilə əvəz edilsin.

**4.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 may tarixli 178 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissədə "31 may" rəqəmləri və sözü "15 iyun" rəqəmləri və sözü ilə əvəz edilsin;

4.2. 1.4-cü bənd ləğv edilsin;

4.3. 1.7-ci béndə "dayandırılması" sözündən sonra (tamaşa-çıların iştirakı olmadan açıq havada idman yarışlarının keçirilməsi istisna olmaqla)" sözləri əlavə edilsin;

4.4. 1.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.13. iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların və ictimai iaşə məkanlarının fəaliyyətinin dayandırılması;";

4.5. 1.15-ci bənddə "18:00-dan" rəqəmləri "22:00-dan" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq q  zeti  2020.- 1 iyun.- S.14.